# AZƏRBAYCANIN MİSLİ GÖRÜNMƏMİŞ TARİXİ QƏLƏBƏSİ

**Xalqımız son 200 illik tarixinin ən şanlı, ən şərəfli anlarını yaşadı. Azərbaycanın torpaqlarını müharibə yolu ilə işğaldan azad etməsi nəinki regionda, bütün dünyada diqqətlə izlənən və qarşılanan hadisə oldu. Çünki bu hadisə ilk növbədə, bir dövlətin uzun illər məruz qaldığı işğala təkbaşına son qoymasının ən mükəmməl müasir nümunəsi idi. Bu baxımdan son onilliklərdə bəşər tarixində bir çox müharibələr baş versə də, Azərbaycanın Ermənistan üzərində hərbi qələbəsi öz unikallığı ilə fərqləndi.**

Bəli, Azərbaycan xalqının çağdaş tarixinə qeyrət, hünər, şərəf səhifəsi kimi yazılan 44 günlük Vətən müharibəsi 30 ildən bəri yaşadığımız yurd itkisinə son qoymaqla hamımıza, dünya Azərbaycanlılarına sonsuz sevinc, ölkəmizə ümummilli təntənə bəxş etdi. Dəmir yumruğa çevrilmiş nəhəng güc hesabına qazandığımız bu misilsiz qələbə faciələrimizin ağrı-acılarını ovutdu. İllər boyunca dədə-baba ocaqlarına sarı boylana-boylana qalan, qaçqın, köçkün, didərgin həyatı yaşayan soydaşlarımızın həsrətinə son qoydu. Müharibə, Prezidentimizin təbirincə desək, hərbi-siyasi metodlarla həll edildi.

Bu şanlı Qələbə hərb tariximizə ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və Azərbaycan əsgərinin adı ilə yazıldı... Bəli, Vətən, torpaq nisgili, ağrıları ilə yaşadığı 200 ildə Azərbaycan xalqı belə bir möhtəşəm bayram ovqatı yaşamamışdı. Bu şanlı qələbə ilə dünyadan köçən vətən həsrətilə soydaşlarımızın, torpaqlarımızın bütövlüyü naminə canlarından keçən, şəhidlik məqamına yüksələn igid oğullarımızın ruhları rahatlıq tapdı. Tarixi qələbəmiz Azərbaycanın hərb tarixində də şərəfli yer tutdu. Belə ki, xalqımızın 30 illik torpaq həsrətinə son qoyulması, tarixi ədalətin bərpası dövlətimizin başçısının digər sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində gerçəkləşdirdiyi müdrik siyasətin məntiqi nəticəsi idi. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi andan ordu quruculuğu daimi diqqət mərkəzində saxlanıldı. Azərbaycan gənclərində Vətənə, orduya dərin sevgi hissi, vətənpərvərlik aşılandı. Bu, İkinci Qarabağ müharibəsində özünü daha qabarıq büruzə verdi. Dövlətimizin başçısı bu məsələ ilə bağlı çıxışlarının birində ətraflı bəhs edərək, bildirib ki, Birinci və İkinci Qarabağ müharibələri arasında fərqdən də bu, aydın görünür: “İnsanlar növbələrdə dayanırdı. Biz qismən səfərbərlik elan etmişdik və buraya müəyyən yaş kateqoriyasına aid vətəndaşlar daxildir. Həmin meyara cavab verməyən vətəndaşlarımız isə gileylənir, məktublar yazırdı ki, məni niyə aparmırlar? Mən də gedib döyüşmək, Vətənimi qorumaq istəyirəm. Hesab edirəm ki, bu, bizim qələbəmizi şərtləndirən əsas amil idi. Əlbəttə, biz güclü ordu qurmuşduq, təlimlər keçirirdik, müasir silahlar əldə etmişdik ki, bu, müharibədə bizə qələbə qazanmağa və əsgərlərimizin həyatını qorumağa kömək etdi. Bu silahlar olmasaydı, itkilərimizin sayı daha çox olardı. Ermənistan ordusu ilə müqayisədə bizim itkilərimiz 2,5-3 dəfə az olmuşdur”... Məhz, gənclərin bu vətənpərvərliyi ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısının bariz nümunəsi idi.

Bəli, Azərbaycanın ən böyük nailiyyətlərindən biri də xoşbəxt gələcəyi yaratmağa qabil gənclər ordusunun yetişməsidir. Belə bir gəncliyi məhz İlham Əliyevin müdrik siyasəti yetişdirdi. Onlar Azərbaycanı güclü, qüdrətli, mübariz, öz milli məqsədlərinə doğru addım-addım irəliləyən gördülər. Dövlətimizin varlığını, gücünü, dəstəyini, diqqət və qayğısını hər zaman hiss etdilər. Qətiyyətlə demək olar ki, Azərbaycan gəncliyi bu dövlətdə, bu Vətəndə öz gələcəyini tam aydın görə bilir. Ona görə də Azərbaycanın inkişafına töhfə verməyə, Vətən naminə misilsiz fədakarlıqlar göstərməyə hər zaman hazırdırlar.

Azərbaycan XXI əsrin müharibəsini apardı. Həqiqətən, Azərbaycanın öz iqtisadi imkanları hesabına aldığı, eyni zamanda, müdafiə sənayesini quraraq özünün istehsal etdiyi innovativ silahlarla apardığı bu müharibə yeni əsrin müharibəsi idi. Azərbaycan göstərdi ki, hərb meydanında avtomatlar, tanklar, toplar və digər belə silahlar dövrü artıq geridə qalıb. Bunların yerini yeni texnologiyalar tutub. Bu silahların əsas hədəfi düşmənin hərbi birləşmələri, texnika və qurğuları, əlisilahlı canlı qüvvəsidir. Eyni zamanda, Azərbaycan bu müharibədə dünyada görünməyən mülki insanlara qarşı yüksək humanizm nümayiş etdirdi. Ermənistanın heç bir mülki obyektini, dinc sakinini hədəfə almadı. Eyni zamanda dünyaya göstərdi ki, artıq sülh barədə daha ciddi düşünmək zamanıdır. Müharibələrə səbəb olan mənasız iddiaları aradan qaldırmaq gərəkdir. Toplumları faşizm mahiyyətli ideologiyalardan çəkindirmək mütləqdir. Azərbaycanın Vətən müharibəsində tətbiq etdiyi ən müasir silahların gücü düşmənin gözünü qorxudaraq onu kapitulyasiya aktına imza atmağa məcbur etdi və dünyaya böyük bir həqiqəti anlatdı. Tarixi qələbədən ötən müddət ərzində Azərbaycan qalib ölkə kimi beynəlxalq aləmdə nüfuzunu daha da gücləndirib. Azərbaycan iqtisadiyyatı dinamik inkişaf yolu ilə sürətlə irəliləyir. Düşməndən təmizlənən torpaqlarda bərpa-quruculuq işləri geniş vüsət alıb. Şəhərlər və kəndlər simasını gündən-günə dəyişir. Tezliklə işğaldan azad olmuş ərazilərdə xalqımızın tarix-mədəni irsinin bərpası və dirçəldilməsinin, məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıdışının şahidi olacağıq.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

Respublika.- 2021.- 29 sentyabr.- S.8.